*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 avqust 2017-ci il № 60 (2177) Qiymәti 25 qəpik


# Bakıda “Dəniz Kuboku-2017” beynəlxalq yarışlarının bağlanış mərasimi keçirilib



Avqustun 11-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində III Beynəlxalq Ordu Oyunları çərçivəsində təşkil edilən "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin təntənəli bağlanış mərasimi keçirilib.

Mərasimdə yarış iştirakçıları, ictimaiyyət nümayəndələri, hərbçilər və xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan və "Dəniz Kuboku-2017" haqqında videoçarx nümayiş etdirilib.

**(Ardı 2-ci səhifədə)**

## Baş hakim: Bakıda “Dəniz Kuboku-2017” müsabiqəsi yüksək səviyyədə keçirildi

*Bakıda "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsi şəffaf və yüksək səviyyədə keçirildi.*

AZƏRTAC xəbər verir ki, bu sözləri avqustun 11-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin bağlanışı ilə bağlı təşkil olunan mətbuat konfransında yarışların baş hakimi, birinci dərəcəli kapitan Şahin Məmmədov deyib.

**(Ardı 3-cü səhifədə)**

## Müdafiə naziri Moskva şəhərinə səfərə gedib

Avqustun 11-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqunun dəvəti ilə Moskva şəhərinə səfərə gedib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov "Beynəlxalq ordu oyunları - 2017" yarışlarının rəsmi bağlanış mərasimində iştirak edəcək.

# Bakıda "Dəniz Kuboku-2017" beynəlxalq yarışlarının bağlanış mərasimi keçirilib



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, dövlət bayrağımız qaldırılıb.

Yarışların hakimlər briqadası, komandalar mərasimə dəvət olunub iştirakçı dövlətlərin bayraqları gətirildikdən sonra müsabiqədə yer tutan komandalar təqdim olunub.

Bundan sonra "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin qalibləri elan edilib və qalib komandalar fəxri kürsüyə dəvət olunub.

Bildirilib ki, hakimlər kollegiyası tərəfindən verilən balların ümumi nəticəsinə görə Azərbaycan və Rusiya hərbi dənizçiləri müsabiqənin qalibləri elan edilib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev və Rusiya Federasiyası Müdafiə nazirinin müavini general-leytenant Aleksandr Fomin komandalara mükafatları təqdim ediblər.

Müsabiqədə 1-ci yer tutmuş Azərbaycan və Rusiya komandalarının şərəfinə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Mərasimdə çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev tədbir iştirakçılarını salamlayaraq onlara Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriklərini çatdırıb. "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin yüksək səviyyədə təşkil olunaraq keçirildiyini qeyd edən general-leytenant K.Vəliyev müsabiqənin Xəzəryanı ölkələrin hərbi dənizçilərinin daha yaxından tanış olmaları, qarşılıqlı münasibətlər və əməkdaşlığın güclənməsi, hərbçilər arasında dostluq və qardaşlıq mühitinin yaranmasına xidmət etdiyini xüsusi vurğulayıb. Nazir müavini iştirakçılara uğurlar diləyərək, "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsini bağlı elan edib.





Sonra hər komandadan bir nəfərin iştirakı ilə III Beynəlxalq Ordu Oyunlarının və "Dəniz Kuboku - 2017" yarışlarının bayraqları endirilib.

Bağlanış mərasimindən sonra iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlərin iştirakı ilə "Dəniz Kuboku-2017" beynəlxalq müsabiqəsinin yekun mətbuat konfransı keçirilib.

Mətbuat konfransında müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsi üçün yaradılan şərait, texniki dəstək qruplarının fəaliyyəti, hakimlər kollegiyasının işi və müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə iştirakçı ölkələrin komandalarının nəticələri barədə ətraflı məlumat verilib, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ermənistan hərbçiləri hərbi hissəni özbaşına tərk etmək və xidmətdən yayınmaq üçün hər yola əl atırlar

Son bir neçə ay ərzində Ermənistan ordusunda xidmətdən yayınma və döyüş mövqelərini özbaşına tərketmə halları artıq kütləvi xarakter alıb.

AZƏRTAC xəbər verir ki, sosial şəbəkələrdə yer alan və aşağıda diqqətə çatdırılan hadisələr deyilənləri tam sübut edir.

Avqustun 4-də Xocavənd rayonu ərazisində yerləşən Ermənistan silahlı qüvvələrinin hərbi hissəsində Q.Piriposyan adlı hərbi qulluqçu hərbi hissəni özbaşına tərk edib.

Avqustun 6-da isə eyni vaxtda Madagiz ərazisində yerləşən hərbi hissələrdə Ermənistan ordusunun 4 hərbi qulluqçusu hərbi hissəni özbaşına tərk edib. Sergey Mardanyan, Sagir Avakyan və İvan Vanesyan barədə nizamnamə çərçivəsində cəza tədbiri görülüb. Hərbi Prokurorluğa bu barədə məlumat verilməyib. Komandanlıq tərəfindən cidd-cəhdlə adı hərbi polisdən gizlədilən 4-cü hərbi qulluqçu isə yaxalanarkən ac olduğunu və yemək üçün getdiyini bildirib.

Daha bir insident Füzuli rayonu ərazisində yerləşən Ermənistan ordusunun bölmələrindən birində baş verib. Belə ki, avqustun 7-də gecə saatlarında bölük komandiri Xalatyanın döyüş mövqeyini özbaşına tərk edərək getdiyi bildirilir. Hadisə gizlədilsə də zabit yoldaşları onun sərxoş vəziyyətdə yaxalandığını bildirirlər.

Ən maraqlı hadisə isə Hadrut rayonu ərazisində yerləşən işğalçı ordunun hərbi hissəsində baş verib. Burada artilleriya divizionunda yuxarı komandanlıq tərəfindən qəfil yoxlama keçirilərkən 3 hərbi qulluqçunun yerində olmadığı aşkarlanıb. Rəhbərliyi aldatmağa cəhd göstərən ermənistanlı zabit onların yerinə başqa əsgərləri yoxlama komissiyasına təqdim edib.

## "Azərbaycan Ordusu heç vaxt dinc əhalini atəşə tutmayıb və heç zaman buna getməyəcək"

Azərbaycan Ordusu heç vaxt dinc əhalini atəşə tutmayıb və heç zaman buna getməyəcək.

Bu fikri AZƏRTAC-a sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov Tovuz rayonunda Ermənistan silahlı bölmələrinin dinc sakinləri atəşə tutmasına və azyaşlı Ramin Yusifova xəsarət yetirməsinə münasibət bildirərkən deyib.

Y.Aydəmirov bildirib ki, ermənilər keçən dəfə də müdafiəmizin dərinliyində yerləşən yaşayış məntəqələrini atəşə tutmuşdular. Yaşayış məntəqələrinin də hamısında dinc əhali yaşayır. Ermənistan ordusunun bölmələri avqustun 7-də saat 20:00 radələrində Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Qaralar kəndini iriçaplı silahlardan atəşə tutublar. Nəticədə kənd sakini, 2004-cü il təvəllüdlü Yusifov Ramin Sabir oğlu qəlpə xəsarətləri alaraq ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Ermənistan tərəfi bununla bizi cavab tədbirləri görməyə təhrik edir və istəyir ki, Azərbaycan Ordusu dövlət sərhədi istiqamətində təmas xəttində onları atəşə tutsun. Məqsəd də odur ki, ermənilər Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfini atəşə tutması barədə bütün dünyaya səs-küy salsınlar. Onların bu çirkin niyyətləri baş tutmayacaq. Çünki Azərbaycan Ordusu heç vaxt dinc əhalini atəşə tutmayıb və buna heç bir zaman getməyəcək. Ermənistan tərəfinin digər məqsədi ondan ibarətdir ki, diqqəti daxili qeyri-sabit vəziyyətdən və əhalinin artan narazılığından yayındırsın. Onlar göstərmək istəyirlər ki, Azərbaycan Ordusu ilə ön xətdə atışmalar gedir və guya Azərbaycan Ordusu təxribat törədir.

"Ermənistan tərəfi öz çirkin əməllərini bizim ordunun üzərinə atmaqla öz daxillərindəki vəziyyəti və narazılıqları azacıq da olsa sakitləşdirməyə cəhd edir. Onlar cəzasız qalıblar. Təəssüf doğuran hal odur ki, beynəlxalq ictimaiyyət də onlara qarşı heç bir tədbir görmür. Ermənistan ordusu durmadan işğal altında olan Dağlıq Qarabağda və Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca təxribatlar törədir. Düşmənin cavabı layiqincə verilir.

Düşmən bizi nə qədər təhrik etməyə çalışsa da, öz mənfur niyyətlərinə çata bilməyəcək. Bir hərbçi kimi əminliklə deyə bilərəm ki, yaşayış məntəqələri və dinc əhali heç vaxt ordumuzun hədəfinə çevrilməyəcək. Lakin təxribatlara hər zaman lazımi cavab veriləcək", - deyə general-leytenant Yaşar Aydəmirov bildirib.

O, iyulun 7-də Ermənistan tərəfindən məqsədyönlü şəkildə planlaşdırılan təxribatı xatırladaraq, Azərbaycan Silahlı Qüvvələrinin bu təxribatın qarşısını, Alxanlı kəndində həlak olan körpə uşağın və onun nənəsinin qisasını aldığını vurğulayıb.

# Baş hakim: Bakıda "Dəniz Kuboku-2017" müsabiqəsi yüksək səviyyədə keçirildi

(Əvvəli 1-ci səhifədə)

Ş.Məmmədov bildirib ki, avqustun 1-dən 11-dək Azərbaycan, Rusiya, İran və Qazaxıstan hərbi gəmilərinin iştirakı ilə keçirilən "Beynəlxalq Ordu Oyunları-2017" yarışları çərçivəsində Bakıda təşkil olunan "Dəniz kuboku-2017" müsabiqəsi üç mərhələdə - artilleriya atəşlərinin yerinə yetirilməsi, gəminin dayanıqlığı uğrunda mübarizə, xilasetmə və dəniz hazırlığı üzrə keçirilib. Müsabiqə yüksək səviyyədə keçirilib.

Qeyd edilib ki, müsabiqənin məqsədi iştirakçı ölkələrin silahlı qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığının artırılması, təcrübə mübadiləsi və hərbi qulluqçular arasında dostluq münasibətlərinin yaranmasıdır.

Diqqətə çatdırılıb ki, avqustun 10-da Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bazasında "Dəniz kuboku-2017" beynəlxalq müsabiqəsinin yekunlarına dair hakimlər kollegiyasının yekun iclası keçirilib.




İclasda Azərbaycan, Rusiya, İran və Qazaxıstanın hərbi gəmilərinin iştirakı ilə keçirilən müsabiqənin bütün mərhələ və epizodlarının yerinə yetirildiyi bildirilib.

Hakimlər kollegiyası tərəfindən verilən balların ümumi nəticəsinə görə, Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin "G-124" gözətçi gəmisinin və Rusiya Hərbi Dəniz Donanmasının "Qrad Sviyajsk" kiçik raket gəmisinin heyətləri yekunda 246 bal toplayaraq müsabiqənin qalibləri elan ediliblər.

İran Hərbi Dəniz Qüvvələrinin "Cövşən" raket kateri 234 balla ikinci, Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Sarıarka" raket-artilleriya gəmisi isə 227 balla üçüncü yerləri tutublar.

Qeyd edək ki, "Dəniz kuboku-2017"də Azərbaycan Hərbi Dəniz Qüvvələrinin "G-124", "G-122" gözətçi gəmiləri, Rusiya Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasından "Qrad Sviyajsk" kiçik raket, "CB-45" xilasetmə yedək gəmisi, İran Hərbi Dəniz Qüvvələrinin "Peykan", "Cövşən" raket gəmiləri və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin "Qazaxıstan", "Sarıarka" raket-artilleriya və "Jayık" hidroqrafiya gəmiləri iştirak edib. İştirakçılar üç mərhələdə altı epizoddan ibarət yarışlarda güclərini sınayıblar.

Rusiya nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Sergey Ekimov, Qazaxıstan nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Ermek Bayqabulov və İran nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Seydi Mahmud Amuzeş yarışların yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə minnətdarlıqlarını bildiriblər.

---

*"Ən yaxşı artilleriya divizionu"*

# Qalib divizion

*Qəzetimizin ötən nömrələrində "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda yarışların keçirilməsi barədə məlumat vermişdik. Azərbaycan Ordusunun bütün hərbi birliklərində, Əlahiddə Ümumqoşun Ordusunda və digər artilleriya hərbi hissələrində yüksək döyüş hazırlığına malik divizionların müəyyən edilməsi üçün öncə yerlərdə təxminən bir həftə davam edən yarışlara ən yaxşı artilleriya bölmələri cəlb edilmiş, ən yaxşılar Silahlı Qüvvələr üzrə birincilik uğrunda mübarizə aparmışdı. Onların yarışda göstərdiyi müxtəlif parametrlər üzrə nəticələri yuxarı komandanlığın nümayəndələri tərəfindən dəyərləndirilirdi.*

Yarışlara bu günlərdə yekun vurulub və Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu adına "N" hərbi hissəsinin hərbi kollektivi layiq görülüb.

Qalib topçuların öz bacarığını nümayiş etdirdiyi yarışda biz də iştirak etdik və bu kollektivin nəyə qadir olduğunu təlim meydanında gördük.

- Bizim artilleriyaçılar birliyin ən yaxşı divizionu adına layiq görüldüyü üçün bu yarışlara



qatılıb, - zabit Vəli Ələsgərov demişdi. - Bu kollektiv həmişə yüksək döyüş bacarığı ilə fərqlənib. Bölmə əvvəllər də "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışda iştirak edib və yüksək yerlər tutub. İndi də şəxsi heyət döyüş hazırlığı dərsləri və praktik məşğələlərdə qazandıqları bilik və bacarıqlarını nümayiş etdirdi.

Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına uyğun il ərzində nəzərdə tutulan tədbirlər hərbi hissədə artilleriyaçılar tərəfindən qrafik üzrə həyata keçirilməkdədir. Gündəlik döyüş hazırlığı məşğələlərində topçular ixtisas, taktiki və atış bacarıqlarını artırır, silahların taktiki-texniki xüsusiyyətlərini öyrənir, doldurucudan tuşlayıcılara qədər, heyətdən diviziona qədər vahid mexanizm kimi hərəkət etmə vərdişlərini mənimsəyirlər. Divizion istənilən zaman həyəcan siqnalı ilə istənilən cəmləşmə rayonuna çıxmağa, döyüş aparmağa hazır və qadirdir.

Kollektivin qazandığı uğurlarda, təbii ki, ilk növbədə zabitlərin zəhməti qeyd edilməlidir. Ramil Qasımov, Rəşad Rəşidov, Mirqafar Ələkbərov, Əfqan İsmayılov və başqaları şəxsi heyətin döyüş ustalığının artırılması üçün əllərindən gələni əsirgəmirlər. Onların rəhbərliyilə topçular həvalə edilmiş qurğuların istismarını lazımınca mənimsəyiblər və praktik olaraq onlardan istifadə etməyi bacarırlar.

Yarış prosesində öncə bölmələrin fəaliyyətinin ayrılmaz hissəsi olan sıra baxışı keçirildi, topçuların xarici görkəmi, silah və texnikaların vəziyyəti də diqqətlə yoxlanıldı.

Sıra baxışından sonra komanda ilə batareyalar döyüş mövqeyi tutmaq üçün hərəkətə gəldilər. Avtomobillər müəyyən edilmiş məkanda əsas atəş mövqeyində topları açdılar, tez bir zamanda sığınacaqlara çəkildilər.

Burada verilən komandalar əsasında heyət üzvləri topları döyüşə hazır vəziyyətə gətirdilər. Belə heyətlərdən birinin fəaliyyətini yaxından izləmək imkanımız oldu.

- Döyüşə! - komandası verilən kimi top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elşad Abdıyev heyət üzvlərinə əmri təkrar səsləndirdi.

Onlarla birlikdə çavuş qurğunu hazır vəziyyətə gətirməyə başladı. Heyət nəfərləri olan müddətli hərbi qulluqçuların da vəzifə borclarını mükəmməl öyrəndikləri hiss edilirdi.

Hər bir heyət üzvü dərhal əmri yerinə yetirməyə başladı və topçular vəzifə bölgüsünə uyğun hərəkət edərək qurğunu döyüşə hazır vəziyyətə gətirməyə tələsdilər. Baş tuşlayıcı əsgər Xaliq Qəmbərov optik cihazı cəld qılafından çıxardı, nişangahın səbətciyinə bərkidib sıfır vəziyyətinə gətirdi.

Digər topçular çevik hərəkətlə qundaq qolunu açdılar. Klini döyüş vəziyyətinə gətirdikdən sonra topun arxasında öz yerlərini tutdular. Top komandiri dərhal bayrağı qaldırıb heyətin döyüşə hazır olduğunu bildirdi.

Sonra batareyalar yarışın şərtlərinə uyğun olaraq atış hazırlıqlarını nümayiş etdirdilər.

Azərbaycan Ordusunun dünyanın ən müasir ordularından olması "Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışda bir daha təsdiqləndi.

Məlum aprel döyüşlərində pilotsuz uçuş aparatları havada düşmən ordusu üzərində ordumuzun üstünlüyünü təmin etmişdi. Bu gün PUA-lar dünyanın qabaqcıl ordularında



geniş yayılıb və bu ənənə Silahlı Qüvvələrimizdə də öz yerini tutmaqdadır. Artıq bu uçuş aparatları Silahlı Qüvvələrimizdə döyüş hazırlığı prosesinin ayrılmaz tərkib hissəsidir. Yarış zamanı məhz PUA-ların köməyilə müvafiq imitasiyalardan sonra artilleriya atəşinə korrektə edilirdi. Bu da topların hədəfləri dəqiqliklə məhv etməsi üçün mühüm amil kimi dəyərləndirilir.

Yarışın şərtlərinə uyğun olaraq batareyalara növbəti tapşırıqlar verildi. Hər müdaxilə döyüş şəraitinə maksimum yaxın şəraitdə icra edilirdi. Qəflətən ərazidə "mərmilərin" partlamasına görə divizion üçün həyəcan siqnalı verildi. Komanda ilə batareyalar çevik qaydada topları səfər vəziyyətinə gətirib atəş mövqeyini tərk etdi. Divizionun bütün şəxsi heyəti hazırlanmamış əraziyə çıxaraq yenidən atəş mövqeyi tutdu, verilən komandalara uyğun tapşırıqları yerinə yetirdi. Burada da batareyaların fəaliyyəti yuxarı komandanlığın nümayəndələri tərəfindən normativlərə uyğun yoxlanıldı və lazımi qeydlər aparıldı.

Zabitlərin ovqatından və şəxsi heyətin davranışından hiss edilirdi ki, batareyalar yuxarı komandanlığın verdiyi tapşırıqları bacarıqla və qüsursuz yerinə yetirib.

- Bütün tapşırıqlar yarış zamanı normativlərə uyğun icra olundu, - yarış yekunlaşdıqdan sonra zabit Rəşad Rəşidov dedi. - Əvvəlcə əsas atəş mövqeyində, sonra ehtiyat atəş mövqeyinə çıxaraq topçular meteo şərait nəzərə alınmaqla tapşırıqları yerinə yetirdilər. Hesab edirəm ki, batareyalar öz vəzifələrinin öhdəsindən bacarıqla gəlməyi bacardılar. Top komandirlərindən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Vüqar Mahmudov, Müşfiq Məsiyev, Elşad Abdıyev və başqaları heyətlərilə birlikdə yüksək hazırlıq nümayiş etdirdilər.

Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu adına layiq görülmüş "N" hərbi hissəsinin hərbi kollektivi komandanlıq tərəfindən mükafatlara layiq görüldü.

**Əbülfət MƏHƏRRƏMOĞLU**

# Səni yaşadıram özümdə, Vətən!

*Müəllim - zülməti işıqlandıran nur, cəhaləti elmin qılıncı ilə məhv edən, insanlara elm öyrədə-öyrədə həyatını şam kimi əridən şəxsiyyətdir.*

Minlərlə şagirdin, tələbənin hörmət və rəğbətini qazanmaq, onların yaddaşlarında hər zaman xatırlanmaq asan deyil. Cəmiyyətimizdə kifayət qədər nüfuza malik olan müəllimlərdən biri də Bakı Dövlət Universitetinin professoru Nəsir Əhmədlidir.

Bu günlərdə ordu şəraitində jurnalistlərin təlimində onu daha dərindən tanıdım. Müharibə şəraitində ən təhlükəli peşələrdən biri jurnalistikadır. "Çünki onlar hər zaman ön xətdə döyüşçülərlə bir yerdə olmağa can atırlar. Jurnalist informasiyanı ən qaynar nöqtədən isti-isti əldə etməyə çalışır. Ancaq bu o qədər də asan başa gəlmir. Burada birinci məsələ sağ qalmağı bacarmaqdır".

Professor onu da qeyd etdi ki, jurnalistika həm peşə, həm də elmdir. - Jurnalistlər praktik olaraq kütləvi informasiya vasitələrində çalışan, onları idarə edən, cari və gələcək problemləri müəyyənləşdirib aradan qaldırmağı bacaran yaradıcı şəxslərdir - deyə o, bildirdi. Jurnalistika elmi KİV-in tarixini, təcrübəsini öyrənib nəzəri müddəalar irəli sürən, medianın hər bir dövrə aid funksiyalarını müəyyənləşdirən, bu funksiyaların uğurla gerçəkləşdirilməsi üçün tövsiyələr hazırlayan zehni fəaliyyət sahəsidir. Praktik jurnalistlər hazırlanmış nəzəriyyələri bilməli və gündəlik işlərində tətbiq etməyi bacarmalıdırlar: "Bəzən görürsən hay-küylə, pafosla deyirlər ki, Vətən sənə canım fəda. Sənin yolunda ölməyə hazıram. Yadınızda qalsın, ölümünüzlə Vətənə nəsə verirsinizsə, ölmək olar. Sağ qalıb Vətənə xidmət etmək daha məqsədəuyğundur".



Həmkarlarım hörmətli professordan ayrılmaq istəmirdilər. Ancaq hər bir işin əvvəli olduğu kimi sonu da olur. Bir neçə saatdan sonra professor Nəsir Əhmədlini yola salırıq.

Növbəti gün yolumuz təbiət qoynunadır. Bura Azərbaycanın gözəllik mücəssiməsinin bir hissəsidir. Avtobus irəlilədikcə dağlarla yaşıllığın təmasından ayrılmaq istəmirəm. Gözlərim önündə canlanan mənzərə ruhumu oxşayır. Bulaqların zümzüməsi, dağın vüqarlı duruşu, yamyaşıl meşənin gözəlliyi, havanın təmizliyi, təbiətdən gələn ruhumu oxşayan səslər kəlmələrlə ifadə ediləcək bir zövq deyil. Bütün bu ecazkar mənzərələr insanın həyat eşqini artırır. Düşünürəm ki, insanın mənəvi azadlığının sirri elə təbiət qoynunda gizlənir.

Avtobusdan düşüb müəyyən bir məsafə qət etmişdik ki, qarşımızda partlayış səsi eşitdik, kəşfiyyat bölüyünün əsgərləri ağacların arxasından üzərimizə atıldı və atəş açmağa başladı. Günümüzün belə başlanğıcı sübut etdi ki, nəzərdə tutulan dönəmdə bizi daha çox sürpriz gözləyir. Nəzərdə tutulan əraziyə çatırıq. Əvvəlcədən bir neçə qrupa bölünürük. Birinci qrup nahar üçün hazırlıqlara başlayır. İkinci qrup ərazinin kəşfiyyatına göndərilir. Gizli şəkildə əldə etdiyimiz məlumatlardan bilirik ki, həm etibarlı şəkildə qorunuruq, həm də qeyd etdiyim kimi sürprizlərə hazır olmalıyıq. Üçüncü qrup isə çadırlarımızın qurulması ilə məşğul olur.

Nəhayət, bütün işlərimizi yekunlaşdırıb dincəlirik. Daha sonra dağ ərazisində məhdud şəraitdə sağ qalmağın yolları, ərazidə səmtləşmənin mahiyyəti və üsulları, oriyentirlərin seçilməsi, döyüş şəraitində səmtlər haqda məlumatlar əldə edirik. Ərazidə məsafələrin ölçülməsi haqda söhbət aparıldı. Azimutla hərəkət etmənin təşkili ardıcıllığı barədə danışıldı. Ərazidə kəşfiyyat və diversiya qrupları ilə rastlaşma haqda nəzəri biliklər də aşılandı.

Həmkarlarım kəşfiyyatçıların bu gecə bizlərə maraqlı sürprizlər yaşadacaqlarını eşitdiklərindən döyüş növbətçiliyinin bölgüsünü apardılar. Məsələnin maraqlı tərəfi bölgünün aparılması deyil, gecə növbətçiliyinin necə aparılması idi. Təcrübəsizlikdən irəli gələn maraqlı məqamlar yaşadıq. Səs, hay-küy, ətrafın müşahidəsi zamanı gələn istənilən səsə çılğın reaksiya səhərə qədər kəsilmədi. Səhər açıldı və həmin gün media nümayəndələrinə ovalıq relyefdə səngərə - təhlükəli zonaya getmə üsulları, ərazinin taktiki xüsusiyyətləri öyrədildi. Həmçinin ön səngərdə ərazinin taktiki xüsusiyyətləri, təbii (meşələr, çaylar, göllər) qurğuların məsafəyə görə ölçülməsi, ərazinin topoqrafik elementləri, ərazidən keçilmə imkanı, ərazinin qoruyucu, müşahidə şəraiti, maskalayıcı vasitələrin, mühəndis təchizatı şəraiti, ilin fəsillərinə görə ərazinin taktiki xüsusiyyətləri, məsafənin müşahidə və s. üsulla ölçülməsi, gözəyarı məsafə təyinində tətbiq olunan üsullar, səsin yayılma sürətinə görə, dinləmə yolu ilə məsafənin təyin olunması, qət ediləcək məsafədə qarşılaşa biləcəyimiz problemlərdən qorunma halları başa salındı.

Sonradan heyət 5 nəfər olmaq şərtilə 3 qrupa bölündü. Hər bir qrupa ümumu əməliyyata nəzarət etmək məqsədilə kəşfiyyat bölüyündən bir nəfər ayrıldı və ayrıca tapşırıqlar qoyuldu. Qruplar azimut bucağını nəzərə alaraq, kompasla hərəkətə başladı. Şərti nöqtələrə çatan həmkarlarım həmin nöqtədə tapdıqları cəhətlərə əsasən növbəti istiqamətə yönəlirdilər. Bütün maneələri keçdikdən sonra geri qayıdan 3-cü qrupun heyətindən 2 nəfər kəşfiyyatçıların pusqusuna düşdü. Birinci qrup da tapşırığı tam yerinə yetirə bilmədi. İkinci qrup maneələri dəf etmək, bütün nöqtələri aşkar etmək, pusquya düşmədən geri qayıtmaq tapşırıqlarını layiqincə yerinə yetirdi.

Bundan başqa jurnalistlərə dağ şəraitində kəşfiyyat təlimləri keçirildi. Daha sonra həyatda sağ qala bilmənin qaydaları, əlaltı vasitələrdən istifadə edərək kompasın düzəldilməsi, ərazidə qida əldə etmək üçün qurulan tələlər, suyun əldə edilməsi, əlaltı vasitələrdən istifadə edərək ocaq əldə etməyin qaydası öyrədildi.

İştirakçıların meşə zonasına aparılmasında əsas məqsəd ekstremal şəraitdə peşə fəaliyyətini həyata keçirmək və cəmiyyəti informasiya ilə təmin etmək qabiliyyətini müəyyən etmək idi.

Meşə təlimləri sona çatdıqdan sonra hərbi hissəyə qayıdırıq. Axşam ümumi yekun yığıncaq keçirildi. Təlimlərin ikinci mərhələsinin başa çatdığı elan edildi. Layihənin rəhbəri Əlisəfa Mehdiyev qeyd etdi ki, üçüncü mərhələ sentyabr ayının ortalarında Bakı Dövlət Universitetində baş tutacaq. Bunun üçün həmkarlarımıza xüsusi mövzular təqdim edildi. O da bildirildi ki, bu mövzuların öhdəsindən layiqincə gələnlər Konflikt Jurnalistikası Məktəbinin üzvləri ola biləcəklər. Bu işdə həmkarlarıma uğurlar arzulayıram.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*11 avqust 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 124 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Məzəm kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycanın hərbi aşpazları "Səhra mətbəxi" müsabiqəsinin bürünc medallarını qazanıblar



*Beynəlxalq Ordu Oyunları çərçivəsində Moskva yaxınlığındakı Alabino poliqonunda keçirilən "Səhra mətbəxi" müsabiqəsinin final mərhələsi başa çatıb.*

Yarışların üç mərhələsinin yekun nəticələrinə görə Azərbaycanın hərbi aşpazları üçüncü yeri tutaraq bürünc medala layiq görülüblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidmət**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, avqustun 9-da Ağdam rayonunun Sarıcalı kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinqin insidentsiz başa çatıb.*

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və onun səhra köməkçisi Mixail Olaru keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika, Oqnyen Yoviç və Martin Şuster aparıblar.

*Ordu və cəmiyyət*

# "Daim ordumuzun yanındayıq"



*90-cı illərin əvvəlləri idi... İmperiya əsarətindən qurtulan və müstəqilliyini yenicə bərpa edən ölkəmiz ağır günlərini yaşayırdı. Belə vəziyyətdən hiyləgərcəsinə yararlanmağı bacaran, havadarlarından böyük dəstək alan erməni təcavüzkarları tarixi Qarabağ torpaqlarımıza savaş başlamışdı... Vətənin başı üzərinə qara buludlar çökmüşdü... Xalq hər gün sərhəd rayonlarından, Qarabağdan ağır və üzücü xəbərlər alırdı. Ermənilər kəndlərimizi, yaşayış məntəqələrimizi atəşə tutur, dinc əhalini öldürürdü. Vətənimizin qeyrətli oğul və qızları könüllü ərazi özünümüdafiə dəstələrində birləşərək Vətəni qoruyur, torpaq uğrunda canlarından da keçirdilər...*

Ələkbər, Eldar, Əlasət, Faiq, Elmir, Səməddin, Yasəf, Məmməd Beyləqan rayon könüllülərdən ibarət özünü müdafiə taborunda, Əşrəf, qardaşı Kərəm, Oktay qardaşı Mətləb (baş leytenant), Sərvan, İslam, Əliyar Cəbrayıl rayon könüllü özünü müdafiə taborunda döyüşüblər. Onlar Cəbrayıl, Füzuli, Xocavənd, Ağdam uğrunda gedən döyüşlərdə fəal iştirak ediblər. Şərəfli döyüş yolu keçən bu veteranların sırasında ordumuzun ilk əsgər şineli geyən oğulları da var. "Torpaqlarımız düşməndən geri alınmayanadək biz ordumuzun əsgərləriyik. Ürəyimiz orduyla döyünür, nəbzimiz orduyla vurur. Ali Baş Komandanımızın əmrini gözləyirik" deyən Qarabağ müharibəsi veteranları ön xətdə Vətənin keşiyində dayanan hərbçilərimizlə mütəmadi görüşlər keçirdiklərini və keçən ilin aprel döyüşlərində də onlarla sonadək bir yerdə olduqlarını bildirdilər.

...Yayın istilərinə baxmayaraq, yenə də Beyləqan, Cəbrayıl rayonunun bir qrup keçmiş Qarabağ döyüşçüsü əsgər və zabitlərimizin yanına getmək üçün toplaşmışdılar. Ordumuzun şanlı tarixinə yeni səhifələr yazan aprel şəhidlərindən Ruhin Qəhrəmanovun atası Əşrəf Qəhrəmanov, Ayaz Hüseynovun atası Ələkbər Hüseynov, Şahin Cavadzadənin atası Yaşar Cavadzadə, Məhəbbət Mirzəyevin atası Ədalət Mirzəyev, bu il fevralın 25-də erməni kəşfiyyat-diversiya qrupunun hücumunun qarşısını mərdliklə alarkən şəhid olan Zülfi Qədimovun atası Rəhim Qədimov da onların sırasında idilər. Hərbi hissələrdə hərbçilərimizlə şəhid ailələrinin, keçmiş döyüşçülərin, Qarabağ veteranlarının görüşlərinin təşkil olunması dəyərli bir ənənəyə çevrilib. Hər dəfə orduda keçirilən "Açıq qapı" günündə, hərbi andiçmə mərasimlərində, bayram tədbirlərində onlar da böyük həvəslə iştirak edirlər.

...Hərbçilərimizi ziyarətə gələn qonaqları hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini zabit Seymur Həbibullahov qarşıladı. Bu zabit aprel döyüşlərindən sonra "İgidliyə görə" medalına layiq görülüb. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuzun günü-gündən artan qüdrətindən, hərbi hissələrimizin müasir, aprel döyüşlərində ordumuzun qələbəsindən, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksək olmasından danışan zabit qonaqları ön xətdə yerləşən bölüyə apardı.

Bölüyün divar mətbuatında təbliğat və təşviqat guşələrinin fəaliyyəti həqiqətən də şəxsi heyətin ictimai-siyasi hazırlıq səviyyəsinin yüksək olduğunun göstəricisidir. Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi "Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır. Şuşada, Xankəndidə də dalğalanacaq", "Azərbaycanın qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olan çox güclü ordusu var", "Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən nəticə çıxarmasa, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaq" kimi fikirləri əsgər və zabitlərimizin Vətənə xidmətində əsas istiqamətverici təsir gücündədir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tam əminliklə söylədiyi "Ordumuz müqəddəs vəzifələri qısa bir müddətdə yerinə yetirəcək" kəlamı Silahlı Qüvvələrin şəxsi heyətində döyüş əzminin təzahürüdür.

Keçmiş döyüşçülər hərbçilərimizlə müharibə xatirələrini bölüşərək ordumuzun yarandığı ilk vaxtlarda da döyüş ruhunun sarsılmaz olduğunu, Vətənə, Torpağa sevgi, düşmənə nifrət hissiylə yaşadıqları ağır müharibə illərini xatırladılar.



Şəhid ataları Əşrəf Qəhrəmanov, Ələkbər Hüseynov, Ədalət Mirzəyev və Rəhim Qədimov çıxış edərək bildirdilər ki, hər biriniz bizim övladımızsınız. Ruhinin, Ayazın, Məhəbbətin, Zülfinin yarımçıq qalmış ömürlərinin davamçılarısızsınız. Arzularını siz həyata keçirin. Düşmənə qarşı amansız olun. Şəhidlərin ruhu o zaman rahat olar ki, erməni ayaqları torpaqlarımızdan birdəfəlik kəsilsin. Qaçqın və köçkünlərimiz ata-baba yurduna qayıtsın. Biz veteranlar hər zaman sizinləyik. Ali Baş Komandanın döyüş əmrinə biz də hər an hazırıq.

Keçmiş döyüşçülər və şəhid ataları hərbçilərimizlə birlikdə dövlət başçısının tarixi sərəncamından sonra yenidən bərpa olunan Cocuq Mərcanlı kəndinin sakinləri ilə görüşdülər. 2016-cı ilin aprel döyüşlərindən sonra strateji əhəmiyyətli yüksəkliyin - Lələtəpənin alınması ilə Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi tam təmin olunub. Bu gün ordumuzun qüdrəti sayəsində Cocuq Mərcanlıda həyat yenidən bərpa olunub. Erməni vandalları tərəfindən dağıdılan bu kənddə bu gün ən müasir infrastruktur qurulub, bərpa işləri aparılıb. Kənddə yenidənqurma işləri hələ də davam etdirilir. 20 ildən artıqdır ki, ölkə ərazisinə səpələnmiş cocuq mərcanlılar artıq öz elinə, obasına dönür. Cocuq Mərcanlı kəndini heç vaxt tərk etməyən, özünün və ailəsinin həyatını təhlükə qarşısında qoyaraq burada yaşayan keçmiş könüllü döyüşçülərdən olan, bu gün isə kənd bələdiyyəsinin sədri, Birinci dərəcəli Əmək ordeninə layiq görülən Oktay Həziyev "Kəndimizin yenidən qurulması və sakinlərin ata-baba yurduna qayıdışı məhz Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin diqqət və qayğısı, eləcə də ordumuzun gücü sayəsində həyata keçdi. O gün olsun ki, işğal altında olan bütün torpaqlarımız azad edilsin. Camaatımızın kəndə dönüşü qaçqın və köçkünlərimizdə ümid çırağını daha da alovlandırıb", - deyərək bəzi məlumatları diqqətimizə çatdırdı:



"Kənddə Prezidentin sərəncamı ilə məktəb və məscid inşa edilib. İnsanların yaşayış evləri ilə təmin olunması məqsədilə tikinti işləri hələ də davam etdirilir. İşğal altında olan digər kəndlərimizin sakinləri də gəlib Cocuq Mərcanlıda yaşamaq istəyir, bu barədə çoxlu sayda müraciətlər də var. Rayonumuzun Qarabağ veteranları, şəhid ailələri hər zaman ordunun yanındadır. Aprel döyüşlərində də biz keçmiş döyüşçülər səfərbər olunduq. 1992-1994-cü illərdə gedən döyüşlərdə kəndimizdən yeddi nəfər şəhid olub, iki nəfər itkin düşüb".

...Uzaqdan Lələtəpə yüksəkliyi görünür. Orada Azərbaycanın qəhrəman övladları tarix yazdılar və tarixə yazıldılar... Orada igid, qorxmaz, torpaqsevər oğullar gecə-gündüz Vətəni qoruyur, düşmənə gözünü açmağa belə imkan vermirlər. Lələtəpədən torpaqlarımız müdafiə olunur. Düşmənin bir atəşi on atəşlə susdurulur. Lələtəpədən Şuşaya gedəcəkləri günün, şəhidlərimizin, Zəhraların, Aygünlərin, Farizlərin qisasını alacaqları günün, Cıdır düzündə Böyük Qələbənin sevincini yaşayacaqları günün həsrətindədir həmin oğullar...

Keçmiş döyüşçülər aprel şəhidlərinin xatirəsinə inşa edilmiş abidəni və iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində erməni təxribatının qurbanı olan dinc sakinlər - Sahibə Allahverdiyevanın və onun iki yaşlı nəvəsi Zəhranın məzarını da ziyarət etdilər.

İnsan övladı oyuncaqlarına qərq olmuş körpə Zəhranın kiçik məzarı başında həyəcansız dayana bilməz... Budur erməni vəhşiliyinin növbəti qurbanları. Yaxın və uzaq keçmişimizdən erməni vəhşiliyini sübuta yetirən çoxlu sayda belə faktlar göstərmək olar. Bu gün cəbhə xətti boyunca erməni silahlı qüvvələri tərəfindən aralarında qadınlar, uşaqlar və ahılların olduğu mülki əhaliyə qarşı qəsdlər davam edir.

Veteranlar, şəhid ataları bölüyün şəxsi heyəti ilə də söhbətlər apardılar, Ali Baş Komandanın əmri ilə ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər başlayarsa, ordumuzun yanında olacaqlarını vurğuladılar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**

**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**

**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

*Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri*

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlidir:

- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir. Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətləri aparır, torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyni zamanda çox çətin bir vəzifəni yerinə yetirirlər. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu özünü hər hansı ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi aşağıdakılardır:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, Müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərmək.

*Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi*

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları: "Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının və fəaliyyətinin hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Əsgərlərdə vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu vardır. Ona görə də belə dərslərdə qrup rəhbərləri hərbi qulluqçulara döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda kömək edir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, fərqlənənlərə həvəsləndirmələr tətbiq edilir.

*Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir*

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur; gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Redaksiyamızın poçtundan*

# Hərbi jurnalist olacaqlar

*Azərbaycanda hərbi jurnalistikanın tarixi Cümhuriyyət dövründən başlanır. "Savadlı qırmızı əsgər" qəzeti, "Qırmızı əsgər" və "Hərbi bilik" jurnalları bu sahədə ilk nəşrlərdir. Doğrudur, "Savadlı qızıl əsgər"in 14, "Qırmızı əsgər"in 16, "Hərbi bilik" jurnalının 10 sayı nəşr edilib, ancaq bu nəşrlər təsdiqləyir ki, Azərbaycanda hərbi mətbuatın kifayət qədər etibarlı bazası olub.*

*II Dünya müharibəsində digər dillərdə olduğu kimi, Azərbaycan dilində də cəbhə qəzetləri nəşr edilib. Bu qəzetlərdə nəşr olunan informasiyalar, məqalələr, oçerklər, reportajlar müharibə tarixidir. Mətbu söz tarixi həmişə yaşadıb. Bütün dövrlərdə hərbi mövzuda yazan jurnalistlərə hərbi jurnalist deyə bilərik. Digər jurnalistlərdən fərqli olaraq onlar həm hərbi işə yaxından bələd olub (əksər hallarda bu vacib missiyanı zabit kimi yerinə yetirib), həm də məntiqi təfəkkürü ilə, sözün (mətbu sözün) gücünə. Bu baxımdan tam artilleriya generalı Əliağa Şıxlınskiyə qüdrətli qələmə malik olan hərbi jurnalist deyə bilərik.*

*Sovet dövründə azərbaycanlılar hərbi jurnalist kimi də xidmət edib.*

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində jurnalist kadrları hazırlanmır. Belə kadrlar mülkidən çağırılır. Hərbi jurnalist kadrların hazırlanması zərurəti baxımından Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan kursantlardan iki nəfəri seçilərək, Rusiya Federasiyasında hərbi jurnalist ixtisası üzrə ali hərbi təhsil almağa göndərildi. İndi onlar ikinci kursda oxuyurlar və mötəbər ali hərbi təhsil ocağında Azərbaycanı təmsil etdiklərindən qürur duyurlar. Onların məktublarını dərc edirik.*

**"Azərbaycan Ordusu"**

Mən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunuyam. Hərbi liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldum.

Təhsil aldığımız ali hərbi məktəbdə dərslər, çöl çıxışları, müəllimlərin, zabitlərin rəftarı və s. yüksək səviyyədədir. Bir il ərzində müəllimlərimizdən lazımi biliklər aldıq. Yataqxanada digər millətlərin nümayəndələri ilə səmimi münasibətlərimiz var. Azərbaycanın Rusiya Federasiyasındakı hərbi attaşeliyi ilə tez-tez əlaqə saxlayırıq. Hərbi attaşeliyin əməkdaşları bizimlə müntəzəm maraqlanırlar.

Sərbəst vaxtımız da çox olur. Biz bundan səmərəli istifadə edirik. Müxtəlif konfranslara qatılırıq. Nekrasov adına kitabxanaya üzv olmuşuq, oradan maraqlı kitabları alıb, oxuyuruq. Bu, rus dilini mükəmməl mənimsəməyimizə kömək edir.



Jurnalistika dərslərindən birində müəllim bizi "Krasnaya Zvezda" qəzetinin nəşriyyatına apardı. Maraqlı idi, qəzet necə yaranır, hansı mərhələlərdən ibarətdir, bu mərhələlər necə icra edilir kimi məlumatlara yiyələndik.

Biz Azərbaycana adına layiq şəkildə nüfuz qazandırmağa çalışırıq.

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV**

Mən kursantam. Hərbi jurnalist olacam. Rusiya Federasiyasında təhsil alıram. Sevinirəm ki, Müdafiə Nazirliyi mənə belə bir etimad göstərdi.

Jurnalistika yaradıcılıqdır. Həm də olduqca məsuliyyətli yaradıcılıqdır. Xidmət etdiyin hərbi qəzetin, jurnalın oxucularını qane edən məqalələr yazmalısan. Bunun üçün kifayət qədər peşə hazırlığın olmalıdır, hərbi qanunvericiliyə yaxından bələd olmalısan. Həm də xalqının tarixini, bu baxımdan hərb tarixini də yaxşı bilməlisən. İki nəfərik - mən və İbrahim. İkimiz də dediklərimizi unutmuruq.

İndi ikinci kursun kursantıyıq. Bizi doğma Azərbaycanımıza təcrübəyə göndərdilər. Təcrübəmizin təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımızı bildiririk. Biz Mətbuat Xidmətində, "Azərbaycan Ordusu" qəzetində, Sənədli və Tədris filmləri kinostudiyasında, Hərbi Nəşriyyatda olduq, onların işi ilə, ümumən hərbi jurnalistikanın təcrübi mərhələsi ilə yaxından tanış olduq.

Təhsilimizi başa vurduqdan sonra Azərbaycanda hərbi jurnalistika istiqamətində xidmət edəcəyimiz illərin qürurunu indidən yaşayırıq.

**Kursant**
**Əli ABIYEV**

*Əsgər məktubu*

# Biz əsgərik!

*Mən də təhsil aldım. Hərbi xidmətə çağırıldım. İndi əsgərəm. İndi əsgər qüruru yaşayanların sırasındayam. Fəxr edirəm ki, Vətəni qoruyuram.*

İnsanı həyatda ucaldan, onun qədir-qiymətini elə özü qədər qoruyan, lazım gələrsə, doğru yol, düzüst yol göstərən dostlarıdır. Uşaqlıq dostlarım da olub, yeniyetməlik dostlarım da. Dostlarım indi də var. Hamısı ilə səmimi münasibətlər mənə xoşdur. Hərbi xidmətdə qazanılan dostluq bunların hamısından fərqlidir. Xidmət edirik, döyüş növbətçiliyi aparırıq, asudə vaxtlarda bu və digər mövzuda söhbətləşirik. Hiss edirik ki, doğmalaşmışıq.

İnsanı hərtərəfli, yaxından tanımaq üçün bəzən illər lazım gəlir. Hərbi xidmətdə illər deyil, aylar deyil, günlər də kifayətdir ki, xidmət yoldaşının xarakterinə bələd olasan.

Hərbi xidmət digər əsgərlər kimi mənə də mətinlik, dözümlük, möhkəm intizam və s. öyrədib. Mən də bilirəm ki, yaxşı əsgər olmağın başlıca şərti intizamdır. Bilmirəm, bəlkə də məni özünə dostlaşdığım əsgər yoldaşlarımın bu xarakteri çəkib. Onların hər birinin timsalında özümü görürəm. Qoy digərləri məndən inciməsinlər. İqbal Rüstəmovu və Elnur Abdulrəhmanlını ürəyimə daha yaxın hesab edirəm. Mən də bilirəm ki, yaxşı dostu tapmaq, qazanmaq asandır, qorumaq çətindir. Özünə və dostuna, hörmətlə yanaşırsansa, dostluğu qorumağı bacarmalısan. Üçümüzün də xasiyyətində, xarakterində oxşar cəhətlər var. Mənə belə gəlir ki, bizi yaxınlaşdıran məhz bu oxşarlıqlardır. Digər əsgər yoldaşlarımız kimi, biz də Vətənimizi çox sevirik, biz də torpağımızın işğaldan azad olunması üçün Ali Baş Komandanın hər bir əmrinə hazırıq. Çox istərdik ki, hərbi xidməti qalib əsgər kimi başa vuraq!

Dostlarımla asudə vaxtlarda aprel döyüşlərindən danışırıq. Aprel döyüşünün qəhrəmanlarından, döyüşlərdə şəhid olanlardan danışdıqca qələbə gününün tezləşməsini arzulayırıq. Sülh danışıqları baş tutmasa, dostluğumuz döyüşlərdə də təsdiqlənəcəkdir.

Biz əsgərik. Biz Azərbaycan əsgəri olmağımızla qürurlanırıq!..

**Əsgər**
**Firdovsi HACIYEV**

# Xəbərlər: hadisələr, faktlar

## Sinay yarımadasında hücum nəticəsində 4 polis öldürülüb



Avqustun 9-da Misirin Sinay yarımadasının şimalında silahlıların hücumu nəticəsində 4 polis öldürülüb. İnsident Şimali Sinay əyalətinin administrativ mərkəzi olan Əl- Əriş şəhərinə gedən yolda baş verib. Silahlılar pusqu quraraq güc strukturlarının hərəkət etdiyi avtomobilə hücum ediblər.

Qeyd edək ki, Misir artıq 2 ildən artıqdır Sinay yarımadasının şimalında hərbi əməliyyatlar aparır. Son zamanlar regiondan mütəmadi olaraq baş verən hücumlar nəticəsində yüzlərlə polis və hərbçi həlak olub.

## ABŞ Venesuelaya qarşı sanksiya siyahısını genişləndirib



ABŞ-ın Maliyyə Nazirliyi Venesuela üzrə sanksiya siyahısını genişləndirib.

Siyahıya daha 40 təşkilat və 30 nəfərin adı əlavə olunub. Bu barədə Maliyyə Nazirliyinin saytında rəsmi məlumat yerləşdirilib.

Sanksiyaya Konstitusiya Assambleyasının üzvləri və ölkənin sabiq prezidenti Uqo Çavesin qardaşı Adan Çaves də daxil edilib. Eyni zamanda qadağalar ölkənin parlament binasının mühafizəsinə cavabdeh olan Milli Qvardiyanın bölük komandirinə də şamil olunub.

## Şimali Koreya Quam adasını nişan alıb



Koreya Xalq Ordusunun məlumatına görə, Şimali Koreya hərbçiləri Sakit Okeanın Quam adasında yerləşən ABŞ-a məxsus hərbi obyektlərə qabaqlayıcı zərbələr vurmaq üçün plan hazırlayıb.

Zərbələrin orta mənzilli "Hvason-12" ballistik raketlər vasitəsilə endiriləcəyi planlaşdırılır. Mümkün hədəflər arasında B-52 tipli strateji bombardmançı təyyarələrin yerləşdiyi "Andersen" aviabazası da var. KXDR lideri Kim Çen In tərəfindən müvafiq əmr veriləcəyi təqdirdə hazırlanan plan həmin an icra olunacaq.

Xatırladaq ki, avqustun 5-də BMT-nin Təhlükəsizlik Şurası yekdilliklə Şimali Koreyaya qarşı sanksiyaların sərtləşdirilməsi barədə qətnamə qəbul edib. Bu KXDR-in iyul ayında keçirdiyi raket sınaqlarına qarşı cavab tədbiridir.

## Naqasakiyə atom bombası atılmasının 72-ci ildönümü qeyd edilib



Avqustun 9-da Naqasaki şəhərinə ABŞ silahlı qüvvələri tərəfindən atom bombası atılmasının 72-ci ildönümü qeyd edilib.

Mərasimdə Yaponiyanın Baş naziri Şinzo Abe ilə yanaşı, 58 ölkənin diplomatik korpusunun nümayəndələri də iştirak ediblər.

Hər il qeyd olunan xatirə mərasimində bildirilib ki, 1945-ci ilin məhz bu günündə Naqasaki şəhərinə atılan atom bombası nəticəsində 70 min insan həlak olub. Hazırda Sülh parkında yerləşən daş sklepin üzərində faciə nəticəsində həlak olan 175 min 743 nəfərin adı qeyd edilib. Ötən il dünyasını dəyişmiş 3551 nəfərin adı da siyahıya əlavə edilib.

Mərasim iştirakçıları atom bombasının şəhərə atıldığı an, saat 11:02 dəqiqədə həlak olanların xatirəsini bir dəqiqəlik sükutla anıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# "Dəniz Kuboku-2017" müsabiqəsinin iştirakçıları arasında mini-futbol yarışı təşkil olunub



*"Dəniz Kuboku-2017" müsabiqəsində iştirak edən Azərbaycan HDQ-nin "G-124" gözətçi gəmisi, Rusiya HDD-nin "Qrad Svi-yajsk" kiçik raket gəmisi, İran HDQ-nin "Cövşən" raket kateri və Qazaxıstan HDQ-nin "Sarıarka" raket-artilleriya gəmisinin ekipajları mini-futbol üzrə yoldaşlıq görüşlərində güclərini sınayıblar.*

Dənizkənarı Milli Parkdakı idman meydançasında təşkil olunan oyunlar olimpiya sistemi üzrə keçirilib.



Azərbaycan və İran komandaları arasında keçirilən görüşdə meydan sahibləri 6:3 hesabı ilə qalib gəliblər.

Rusiya və Qazaxıstan komandaları arasında keçirilən görüşdə isə Rusiya dənizçiləri 3:2 hesabı ilə uğur qazanıb.

Gərgin final oyununda Azərbaycan dənizçiləri Rusiya komandasına 8:5 hesabı ilə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə yüksəliblər.

Üçüncü yer uğrunda keçirilən görüşdə İran dənizçiləri Qazaxıstan komandasını 5:2 hesabı ilə məğlub ediblər.

Sonda komandalara medallar, fəxri fərmanlar, hədiyyələr və kuboklar təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Ermənistan rəhbərliyinin cəbhədəki məğlubiyyətlərin əvəzini virtual məkanda çıxmaq niyyəti də uğursuzluqla nəticələnir

*Ermənistan rəhbərliyinin cəbhədəki məğlubiyyətlərin əvəzini virtual məkanda çıxmaq niyyəti ilə atdığı addımlar da uğursuzluqla nəticələnir. Bunu AZƏRTAC-a hərbi ekspert, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bildirib.*

Y.Aydəmirov deyib: "Erməni mətbuatı guya azərbaycanlı əhalinin cəbhəboyu kəndləri tərk etməsi barədə dezinformasiya xarakterli məlumatlar yayır. Əminliklə deyə bilərəm ki, bu cür məlumatların əsası yoxdur. Əhali Azərbaycan Ordusuna güvənir, kəndlərdə rahat, arxayın yaşayır, gündəlik təsərrüfat işləri ilə məşğul olur. Ermənistan silahlı qüvvələrinin vəziyyəti gərginləşdirmək məqsədilə yaşayış məntəqələrimizi və dinc əhalini mütəmadi atəşə məruz qoyması isə heç kəsi qorxutmur və kimsə də öz yurd-yuvasını tərk etmək niyyətində deyil".

Ekspert qeyd edib ki, ermənilərin şişirdərək guya yaşayış məntəqələrimizdə atəş nöqtələrinin yerləşdirilməsi və bu səbəbdən əhali ilə hərbçilər arasında mübahisələrin yaranması barədə yazdıqları da növbəti erməni riyakarlığıdır. Atəş nöqtələrimizin kəndlərdə yerləşdirilməsi iddiası isə Ermənistan hərbi rəhbərliyinin real vəziyyətdən tamamilə bixəbər olmasının göstəricisidir. Qarşı tərəfdən fərqli olaraq Azərbaycanın hərbi kəşfiyyatı düşmən haqqında yetərincə və hərtərəfli məlumata malikdir. Odur ki, Ermənistan hərbi-siyasi rəhbərliyinin mətbuata ötürdüyü xəbərlər, ancaq vəziyyətə bələd olmayan, daim aldadılan erməni əhalisi üçün keçərli ola bilər və bununla onlar özlərini təmizə çıxarmaq məqsədini güdürlər.

Dezinformasiya məqsədilə düşmən tərəfindən sonuncu yayılan və cəbhəboyu kəndlərdə vəziyyətlə bağlı iddia edilən guya "idarə rəisinin Müdafiə Nazirliyinin rəhbərliyi"nə ünvanladığı "məktub"dur.

Bu saxta "məktub" o dərəcədə bisavad və səriştəsiz hazırlanıb ki, onu ciddi qəbul etmək düzgün deyil. Bu, erməni qeyri-peşəkarları tərəfindən tələm-tələsik uydurulmuş və səliqəsiz düzüb-qoşulmuş bir kağız parçasıdır.

Ermənilərin bu kimi saxtakarlığı son günlər Azərbaycan mətbuatında işğalçı ordudakı neqativ hallar barədə yayılan faktlara cavab olaraq ermənisayağı atılmış növbəti bir addımdır.

*Hərbi ənənələr, yeniliklər*

# Merkava tankı

*İsrailin əsas döyüş maşınlarından biri "Merkava" tankıdır. İlk "Merkava Mk.1" döyüş maşını 1979-cu ildə hazırlanıb. Döyüş maşınının sonuncu modeli "Merkava Mk.4"-dür. Onun əsas xüsusiyyətlərindən biri mühərrik-transmissiya bölməsinin gövdənin qabaq hissəsində yerləşməsidir. Bu, heyətin əlavə müdafiəsini təmin edir. Tankın arxa hissəsində yaralıların və desantların daşınması, əlavə döyüş sursatlarının yerləşdirilməsi üçün yer də ayrılıb.*



Döyüş vəziyyətindən asılı olaraq "Merkava", taktiki tank, ZTR və PDM kimi istifadə imkanına malikdir. Bölmənin qapısı möhkəm zirehlənib, bu da çətin anlarda heyətə döyüş maşınını arxa hissədən tərk etməyə imkan verir. Heyətin içəri rahat daxil olması üçün onun arxa hissəsindəki lyuk ikiqat zirehlənib və 600 millimetr enindədir. Maşının sol tərəfində idarəetmə bölməsi yerləşdirilib. Mexanik-sürücünün yanında hərəkət etməyən üç ədəd periskopik cihaz quraşdırılıb. Lazım gələrsə, onlardan biri gecəgörmə cihazı ilə əvəz edilə bilər. Tuşlayıcının yeri topun sağ tərəfindədir. O, səkkizqatlı optik nişangah, lazerli uzaqölçənlə və periskopik cihazla təmin edilib. Hədəfə qədər olan məsafə haqqında məlumatlar lazerli uzaqölçən vasitəsi ilə ballistik hesablayıcıya daxil edilir. Hədəfin sürəti, atmosfer şəraiti, küləyin sürəti, təzyiq, temperatur və s. məlumatlar hesablayıcı maşına avtomatik olaraq ötürülür. Atmosfer parametrlərinin göstərici aparatı çıxarılan teleskopik dirəkdə quraşdırılıb. Komandirin panoramlı optik nişangahla təchiz edilən yeri tuşlayıcının arxa hissəsindədir. Topun sol tərəfində təchizatçı üçün yer ayrılıb və lazım gələrsə, mexanik-sürücü və tuşlayıcı funksiyasını da yerinə yetirə bilər. Radio-rabitə cihazı qülləde, təchizatçının yanında yerləşdirilib. Gövdənin arxa hissəsində əlavə döyüş dəstinin, şəxsi heyətin və altı nəfər desantın yerləşdirilməsi, yaralıların daşınması üçün dörd ədəd xərək üçün bölmə də ayrılıb.

"Merkava"nın heyəti dörd nəfərdən ibarətdir. Daha sonra, "Merkava" tankı yanğın əleyhinə, kütləvi qırğın silahından qorunmaq üçün mühafizə sistemi ilə də təchiz olunub.

"Merkava" döyüş maşınında Amerika istehsallı 105 mm kəsikli M68 topu yerləşdirilib. Döyüş dəsti 62 atışdır, vacib hallarda isə 86 atəşə qədər çatdırıla bilər. Ondan zirehdeşən, kalibraltı, kumulyativ və zirehdələn fuqas, tüstülü mərmilərdən də atəş açıla bilər. Köməkçi silah kimi 7,62 mm-lik qoşa MAG pulemyotundan da istifadə edilir. Əlavə iki belə pulemyot komandir və təchizatçının yanında quraşdırılıb. Pulemyotun ümumu döyüş dəstini 1000 güllə təşkil edir. Bundan başqa qüllənin sol tərəfində 60 mm-lik minaatan da quraşdırılıb. Ondan mərmi-fuqas, tüstülü və işıqsaçan minalardan istifadə edilir və döyüş komplekti 30 ədəddir. Mühərriki Amerika istehsalıdır, dizeldir: 900 at gücündədir. "Merkava"nın şassisi üzərində "Şolef" özüyeriyən artilleriya qurğusu hazırlanıb. "Kristi" növlü asılqana da malikdir ki, onun elementləri gövdəsinin xaricində yerləşdirilib. "Merkava" döyüş maşınının "Merkava Mk.2", "Mk.3", Mk.3D", "Mk.3B "Baz", "Mk.4" və s. modelləri vardır ki, onlar müxtəlif cihazlanma və silahlanma ilə təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 340
Nüsxə 4600